**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# SƏRƏNCAM

№ 01

Bakı şəhəri 09 yanvar 2014-cü il

AMEA-nın "Gənc alim" analitik-informasiya sisteminin yaradılması haqqında

Son zamanlar AMEA-da gənclərin intellektual potensialının inkişafı, onların daha geniş miqyasda elmi və elmi-təşkilati fəaliyyətə cəlb edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir. Müasir şəraitdə bu tədbirlərin daha effektiv həyata keçirilməsi elmi gəncliklə iş sahəsində yeni idarəçilik mexanizmlərinin tətbiqini tələb edir. AMEA-da bu vəzifələri uğurla yerinə yetirmək, səmərəli qərar qəbul etmək, müxtəlif təyinatlı təhlillər aparmaq, konkret şəxslər haqqında məlumat əldə etmək məqsədilə elmi gənclik barədə ətraflı məlumatları özündə əks etdirən analitik-informasiya sisteminin yaradılması məqsədə uyğundur. Bunu nəzərə alaraq:

1. AMEA-nın "Gənc alim" analitik-informasiya sisteminin yaradılması məqsədəuyğun hesab edilsin və bununla əlaqədar işlənilmiş forma təsdiq olunsun (əlavə olunur).
2. AMEA İnformasiya Texnologiyaları İnstitutuna (AMEA-nın müxbir üzvü Rasim Əliquliyev) tapşırılsın ki, "Gənc alim" analitik-informasiya sisteminin yaradılmasını təmin etsin.
3. AMEA-nın elmi müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın:
   - 3.1. yaşı qırxa qədər olan gənc əməkdaşların siyahısını müəyyənləşdirərək on gün müddətində AMEA Rəyasət Heyətinə təqdim etsinlər.
   - 3.2. siyahı üzrə müəyyənləşdirilmiş gənclər haqqında məlumatların iyirmi gün müddətində science.az saytında yerləşdirilmiş forma üzrə "Gənc alim" analitik-informasiya sisteminə daxil edilməsini təmin etsinlər.
   - 3.3. hər bir elmi müəssisə və təşkilat üzrə məlumatların sayta operativ daxil edilməsinə və dəqiqliyinə nəzarət etmək üçün məsul şəxs müəyyən edilsin.
4. Sərəncamın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik Akif Hacıyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ ÜMUMİ ŞÖBƏ MƏRKƏZİ APARAT